Yazan
01.11.13 20:59 -

Makedoniya prezidenti George İvanov Azərbaycan prezidenti İlham Əliyevi yenidən bu vəzifəyə seçilməsi münasibətilə təbrik edib. APA-nın xəbərinə görə, təbrikdə deyilir: “Yenidən Azərbaycan Respublikasının prezidenti seçilməyiniz münasibətilə Makedoniya Respublikasının xalqı adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi və ali dövləti vəzifənizdə ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram. Fürsətdən istifadə edərək bildirmək istəyirəm ki, qarşıdakı illərdə əlaqələrimiz dostluq və əməkdaşlıq ruhunda davam edəcək”.

İndoneziya prezidenti Susilo Bambanq Yudhoyono da Azərbaycan prezidentini təbrik edib. Təbrikdə bildirilir: “Azərbaycan Respublikasının prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi İndoneziya Respublikasının hökuməti və xalqı adından, şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm. Əminəm ki, Sizin yeni prezidentlik dövrünüzdə uzun illər boyu ölkələrimizin malik olduğu konstruktiv əməkdaşlıq davam etdiriləcək. Qarşılıqlı əməkdaşlığımızın potensialı böyükdür. Bununla əlaqədar, mən Sizinlə əməkdaşlığın digər istiqamətlərində, xüsusilə enerji, ticarət və sərmayə qoyuluşu sahələrində çalışmağa ümid edirəm”.